# Separatizmin kökü kəsildi,

# suverenlik tam bərpa edildi

***44** günlük Vətən müharibəsində Ermənistan kapitulyasiya aktını imzalayaraq öz silahlı qüvvələrini Qarabağdan çıxarmalı olduğu halda, buna əməl etmədi. Humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın dəhlizindən istifadə edərək bölgəni silahlandırmağa davam etdi.*

Ermənistanın məqsədi qanunsuz rejimin dayaqlarını möhkəmləndirmək idi. Lakin Azərbaycan dəfələrlə bəyan etmişdi ki, ölkə ərazisində ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcək və öz suverenliyini bərpa etmək üçün bütün vasitələrdən istifadə edəcək. Buna baxmayaraq, Ermənistan xaricdən aldığı dəstəyə güvənərək rəsmi Bakının bu çağırışlarını qulaqardına vururdu.

**(davamı 15-ci səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

2023-cü il sentyabrın 19-da Xocavənddə erməni təxribatı nəticəsində basdırılmış mina partladı və 6 nəfər azərbaycanlı şəhid oldu. Bu hadisə Qarabağda antiterror tədbirlərini qaçılmaz etdi. Azərbaycan ordusunun bölmələrinin həyata keçirdiyi hərbi əməliyyat cəmi 23 saat 43 dəqiqə çəkdi və Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri tamamilə separatçılardan təmizləndi. Bununla da Azərbaycan öz suverenliyini tam təmin etdi. Lakin bu uğur ikiyüzdən çox şəhidin canı bahasına başa gəldi. Həmin gün Azərbaycan Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin erməni diversiya qrupları tərəfindən basdırılan mina ilə partladılması nəticəsində bir neçə hərbi qulluqçu həlak oldu və yaralandı. Bu hadisə də Ermənistanın üçtərəfli Bəyanatın şərtlərinə əməl etmədiyini və bölgədə sülhə təhlükə yaratmağa davam etdiyini göstərdi.

Azərbaycan regionda uzunmüddətli sülhün və təhlükəsizliyin təmin olunmasına maraqlı olduğunu müharibədən sonra atdığı addımlarla göstərmişdi. Tarixi Zəfərdən sonra Azərbaycan Ermənistanı beynəlxalq hüququn beş əsas prinsipini əks etdirən sülh müqaviləsini imzalamağa dəvət etdi. Ermənistan müxtəlif görüşlərdə bu prinsipləri qəbul etdiyini bildirsə də buna riayət etmədi. Təxribatlar törətməklə yanaşı, Ermənistan "humanitar böhran" adı altında manipulyasiya etməyə çalışaraq öz məkrli planlarını həyata keçirmək niyyətində idi.

Prezident İlham Əliyev ötən il 15 oktyabr tarixində Azərbaycan bayrağını Xankəndi şəhərində ucaltdı, dövlətimizin başçısı burada antiterror tədbirlərindən bəhs edərək bir daha bəyan etdi ki, bu, onlara dərs olmalıdır: "Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın".



Azərbaycan dövləti qanunsuz rejimin rəhbərlərini, o cümlədən Ruben Vardanyan, Arayik Arutunyan və digər xunta başçılarını ədalətə təslim etməklə müharibə cinayətlərinə görə cəza tətbiq edəcəyini göstərdi.

Antiterror tədbirlərinin peşəkarlıqla həyata keçirilməsi və uğurlu nəticə verməsi gözlənilən idi. Azərbaycan postmüharibə dövründə dəfələrlə təxribatlara qarşı qətiyyətlə cavab verərək "Qisas 1" və "Qisas 2" əməliyyatları ilə uğurlu nəticələr əldə etmişdi. Bu əməliyyatlar zamanı Azərbaycanın Kəlbəcər və Laçın rayonlarının dağlıq ərazilərində yerləşən strateji yüksəkliklər geri alındı. Ermənistanın bölgədəki qeyri-qanuni hərbi mövqeləri dağıdıldı.

Rusiya sülhməramlılarının mövcudluğuna baxmayaraq, Ermənistan silahlı qüvvələrinin təxribatları Azərbaycan Ordusunun sərt cavabı ilə qarşılandı və bölgədəki qeyri-qanuni silahlı dəstələrin təxribatlarına son qoyuldu. Azərbaycanın bu haqlı mübarizəsinə nə Avropa dairələri, nə də başqa qüvvələr müdaxilə edə bilmədilər, çünki ölkəmiz beynəlxalq hüquqa əsaslanan haqlı mövqeyini qorumaq üçün qətiyyətli addımlar atmışdı.

Azərbaycan tarixinin ən şərəfli dövrünü yaşayır. Ölkəmizin ərazi bütövlüyü uğrunda apardığı mübarizənin növbəti mərhələsi uğurla başa çatıb. Azərbaycanın hər sahədə qazandığı qələbələr ermənilərin "boz zona" kimi xəbis planlarını iflasa uğradı, xalqımızın haqq işi qalib gəldi.

**Musa BAĞIRLI,**
**"Respublika".**




Respublika .- 2024.- 20 sentyabr (№ 205).- S.1;15.